**UOT 75**

***Rəvanə Abbasova***
***Azərbaycan Dövlət Rəssamlıq Akademiyası***
***AZ1029, Bakı, Heydər Əliyev pr.58***
***E-mail:*** 911990ra@gmail.com

# QACARLAR DÖVRÜ MONUMENTAL RƏNGKARLIĞINA XAS BƏDİİ XÜSUSİYYƏTLƏR

**Xülasə:** Məqalədə qeyd olunur ki, XVIII əsrin sonunda yaranmış Qacarlar üslubu öz təməlini miniatür ənənələri və orta əsr Şərq ənənələrini əks etdirməklə yanaşı Avropa ilə yaranan əlaqələrin nəticəsində Avropa rəssamlıq məktəbinin xüsusiyyətlərini özündə daşıyırdı. Qacarlar üslubunda Şərqə xas estetiklik, şərtilik, dekorativlik və Qərbə xas realizmin vəhdəti birləşir. Bütün bunlar özündə XIX əsrdə yeni üslubunu formalaşdırır. Monumental divar rəngkarlığı özündə saray həyatı zənginliyi aristokratiyanı əks etdirməklə Avropanın bir sıra şəhərlərindən bəhrələnərək təqdim olunur. Müəllif qənaətə gəlir ki, Qacarlar üslubu incəsənətdə təkcə təsviri incəsənətdə deyil, dekorativ incəsənət sahələrində də yüksək inkişaf səviyyəsinə qədəm qoyaraq üslubun dekorativləşməsinə imkan yaratmışdır.

**Açar sözlər:** Qacar dövlətinin yaranması, Qacarlar üslübunun yaranması, Qacar incəsənətinə xas monumental rəngkarlıq nümunələri, bədii xüsusiyyətləri,

İran tarixində Qacarlar dövləti adı ilə tanınan Qacar sülaləsi 1795-ci ildə yaranıb 1925-ci ilə qədər hökm sürmüşdür. Qacarlar qovanlı türk tayfasından ibarət olub, monqolların işğalı dövründən İrəvan ərazisində məskunlaşdıqdan sonra Səfəvilər sülaləsini Azərbaycanda və İranda hakimiyyətə gətirən qızılbaş türk tayfalarından ibarət idi. Səfəvilər dövlətinin XVI-XVII əsr dövrlərində qacarlar bir sıra rəsmi vəzifələrə malik idilər. I Şah Abbasın vaxtında İranın müxtəlif ərazilərində məşkunlaşaraq şahsevən türk tayfaları kimi tanınırdılar. Sonralar Qacar hakimiyyəti altında birləşərək Azərbaycan və İran ərazisində hakimiyyətə gəlmişdilər.Sülalənin adı ilə əlaqədar dövlətin adı buradan götürülmüşdür. Sülalənin banisi Ağa Məhəmməd xan Qacar idi, hansı ki o, İranı birləşdirib Tehranı paytaxt elan edərək türk qacar qəbiləsinin qurucusu olmuşdur. Ağa Məhəmməd xan Qacar 1797-ci ildə sui qəsd nəticəsində öldürüldükdən sonra hakimiyyətə sülalənin ikinci padşahı Fətəlişah (1797-1834) gəlir. Məhz bu dövr İran dövləti Avropa dövlətləri tərəfindən bir sıra daxili və xarici iqtisadi siyasi hiylələrə məruz

qaldığından bir sıra dəyişiklərə məruz qalır (3, 100). Baş verən dəyişikliklərlə əlaqədar olaraq təsviri incəsənətdə də dəyişikliklər özünü əks etdirir. Qacarlar dövlətində Fətəli şahın incəsənətə əhəmiyyətli dərəcədə dəyər verdiyi qədər ikinci şah olmamışdır. O, özü şah olması ilə bərabər "Xaqan" təxəllüsü ilə şeirlər yazırdı. Belə çətin şəraitdə şahların incəsənəti və rəngkarlığa üstünlük vermələri İranı sənətkarlar üçün qərb üsulu ilə tanış olmaqla ənənəvi üsuldan uzaqlaşmağa səbəb oldu. Bu təcrübə metodu yeni texniki vasitələrin, yeni formaların tətbiqi, yeni cizgilərin yaranmasına, rəssamların yaradıcılığında elmi perspektiv yanaşma prinsiplərini ortaya qoydu (4, 92).

Qacar dövrü divar rəsmlərinin geniş təhlili haqqında məlumatı Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Telman İbrahimovun 2013-cü ildə çapdan çıxan “Qacar üslubunda rəngkarlıq əsərləri” kitabı verir. Sənətşünas bu kitabda çox geniş hər tərəfli təhlillər edərək üzə çıxarmışdır. Telman İbrahimov tətqiqatları əsasında bildirir ki, termin kimi ilk dəfə XX əsrin ortalarında rəsmi üslub kimi yaranıb qəbul edilmişdir. Üslub elə yarandığı dövrdən ənənəvi şərq üslublu İran rəssamlığından qərb üslubunun təsiri altında olan müasir rəssamlığa keçid ilə xarakterizə olunur. Şərq təfəkkürünə xas xəyalpərəst düşüncə artıq qərbin idealist və realist düşüncəsi ilə toqquşaraq yeni mərhələyə qədəm qoyur. Bu, sənətkarlar üçün yenilik idi (3, 99). Sənətkarlar qərbin rəssamlıq düşüncəsini mənimsəməyə cəhd edirlər. Nəticədə Avropa incəsənətində baş verən dəyişikliklər Qacarlar dövrü rəssamlığına öz təsirini göstərir (1, 7).

Fətəli şahın dövründə üstünlük verdiyi dəbdəbə və zənginlik özünü sarayların interyerlərində, geyimlərdə, aksesuarlarda bər-bəzək nümunələrində əks etdirirdi. Sarayların divarların Fətəli şahın təsvirləri ilə bəzədilməyə başlanılır.Təsvirlərdə Fətəli şah oturmuş vəziyyətdə, saray əyanlarının əhatəsində, oğullarının, musiqiçilərin, rəqqasələrin və öz hərəmxana kənizləri ilə birgə təsvir edilməyə başlanılır. Zəngin təbiət təsviri ilə bərabər divarlarda sarayın interyerində əsas yer tutan xalça, xalılar şahın oturduğu qiymətli xalça, önündə yemək süfrəsi, meyvə və başqa şirniyyatların təsvirləri də verilir. Əsasən portret janrında işlənən əsərlərdə şahı mənzərə və ya sarayın interyerində təsvir edərək saray həyatının zənginliyini, aristokrat bər-bəzəyini və kübarlığını əks etdirməyə çalışırdılar. Bu, Qacarlar üslubunun əsas xüsusiyyəti idi. Lakin Qacarlar sülaləsi tarixində Fətəli şahın dövründəki kimi zənginliyə meyllik yox idi. Müzəfərəddin şah, Nəsrəddin şah və Əhməd şahın hakimiyyəti dövrlərində qacarlar üslubu öz monumentallığı və ənənəviliyini itirmişdir. Getdikcə XIX əsrdən etibarən qacar üslubu saraylardan çıxaraq şəxsi malikanələrin divarlarında qəhvəxana, hamamlarda özünü əks etdirirdi. Fətəli şahın hakimiyyəti dövründə Avropa rəssamlıq ənənəsi özünü incəsənətdə də göstərirdi. Avropa rəngkarlığı ilə yanaşı Napaleonun dövründə ampir üslubu rəssamlar tərəfindən böyük maraqla öyrənilirdi.Şərq və Avropa üslubunun birləşmsi nəticəsində Flamand və Florensiya incəsənətinin təsiri özünü göstərir (1, 7-8-40).

Qacar dövrü incəsənəti özündə əvvəlki dövrlərin rəngkarlıq elementlərinin xüsusiyyətlərini əks etdirirdi. T.İbrahimovun tədqiqatlarına əsasən Qacarlar üslubu

öz mənbəyini Qəzvin üslubundan almışdır. Belə ki, kitab səhifələrini bəzəyən miniatürlər tədricən kitab səhifələrindən çıxaraq müstəqil şəkildə yaradılmağa başlayır. Qəzvində yaranan bu ənənə isə XVI əsrin sonu XVII əsrin əvvəllərində İsfahan üslubunun formalaşmasından qaynaqlanaraq yaranır. Qəzvin üslubunda rəssamlar əsasən şahzadələrin və aristokratların həyat tərzinə üstünlük verirdi. Təsvirlərdə şahın varisləri, şərab içənlər, musiqiçilər, şer oxuyanlar təsvir olunurdu. Həmin təsvir üslubu gələcəkdə Qacarların mövzu və üslubunun formalaşmasına zəmin yaratmışdır (1, 8).

Avropa incəsənətinə xas özəlliklər İsfahan sarayındakı monumental rəngkarlıq nümunələrinə təsirini göstərir. Sənətşünas T.İbrahimov bildirir ki, burada fiqurda işıq-kölgə elementləri, perspektiva və əks elementlər təsvirlərdə özünü əks etdirir. Fətəli şahın dövründə monumental divar rəngkarlığı saray rəngkarlığının davamı kimi əsas sahə olaraq qalırdı. Əsas məqsəd tarixi hadisələri, şahın səltənətini,onun qüdrətini və hakimiyyətinin sarsılmazlığını göstərmək idi. Çoxfiqurlu kompozisiyalarda saray əyanları elçilər olan məclislər əks olunurdu.Həmin divar rəngkarlığı sarayların sütünları arasında tağları bəzəyirdi. Burada realizmlə şərtilik, rəmziliklə tarixilik vəhdət təşkil edirdi (1, 60).

Monumental divar rəngkarlığı Səfəvilər dövründən aparıcı sahə idi. Lakin orta əsrlər Nadir şah dövrünün ənənəvi divar rəsmlərinin inkişaf dövrü Qacarlar dövrünün XVIII-XIX əsrlərinə təsadüf edir. Səfəvilər dövrünə aid Çehil sütün, Ali Qapı saraylarındakı divar rəngkarlığı və kaşılı panno nümunələri sonradan Qacarlar dövrü təsvirləri üçün əsas mənbə idi. Təsvirlərin əsasını saray həyatını, dəbdəbəni əks etdirmək sarayda kecirilən məclisləri göstərmək, şah və onun ailəsi,döyüş və ov səhnələri təşkil edirdi. Burada əsas məqsəd personajların daxili aləmini deyil, zənginliyi, dəbdəbəni əks etdirmək idi (1.11- 19).

Qacarlar dövrünə aid monumental rəngkarlıq nümunələrinə İrəvan Xan sarayının təsvirlərində də rast gəlirik. Bu təsvirləri sarayın Yay zalında Nadir şahın Hindistana səfərini əks etdirən müxtəlif kompozisiyalardır. Bundan əlavə kompozisiyalarda bir şıra şahların – Fətəli şah, Abbas Mirzə və Hüseynqulu şahın portretlərini görə bilərik.bu portretlər özündə Şərq sənətinin ənənələrini daşımaqla bərabər Avropa incəsənətinin təsirini əks etdirir.

Monumental divar rəngkarlığa aid nümunələrdən biri İran-Bastan muzeyində nümayiş olunan Fətəli şahın Rus imperiyası arasında gedən döyüş qələbəsini əks etdirir. Əsər iki hissədən ibarətdir: Fətəli şah tablonun sol tərəfində ağ at üstündə təsvir olunmuşdur. Kompozisiyanın əsasını qızğın döyüş anı təşkil edir. Əsərin 3/2 hissəsini İran ordusu, 3/1 hissəsini Rus ordusu təşkil edir. Rus qoşunu daha kiçik ölçüdə təsvir edilib. Əsərdə İran ordusunun təsvir edildiyi hissəsində obrazlar daha aqressiv və döyüşkən təsvir edildiyi halda, rus ordusu yerə yıxılmış atları ilə hücuma məruz qaldıqları anda təsvir edilir. İran ordusu tərəfdə sur çalınır. Rəssam bununla qələbənin İran dövlətinə aid olduğunu tamaşaçıya bildirir. İran tarixində bu əsər mühüm əhəmiyyəti o idi ki, rəssamlar insanları hərəkət halında çəkməyə cəhd edirlər. Çoxfiqurlu kompozisiya özündə tarixiliyi əks etdirir (1, 63).

Sənətşünas T.İbrahimov fikirlərinə əsasən Qacarlar dövründə monumental dekorativ pannolar təkcə sarayları deyil, hamamları, qəhvəxanaların və ictimai binaların bəzəyini təşkil edirdi. Həmin pannoların kökü isə XVII əsrə Səfəvilərin tarixindən qaynaqlanır. Lakin monumental rəngkarlıq əsərləri təkcə qəhvəxana rəngkarlığı ilə bitmirdi. Həmin ənənələr Əhəmənilərdə "Təxt-i Cəmşid"adlı monumental barelyeflərdən qaynaqlanırdı.Onlar Sasanidəki Mədain saraylarının davamı olaraq gəlirdi. (4, 198).

Bu günə kimi İsfahanda Çehil Sütün sarayında qorunan monumental dekorativ pannolardan bəhs etmək olar. Pannonun sujeti dini mövzu əsasında Kərbala müsibətlərini əks etdirirdi, hansı ki, rəssamı Məhəmməd Mudəbər idi. Həmin dini mövzudan ibarət Kərbala müsibətləri əsasən qəhvəxana rəngkarlığında rast gəlinirdi. Həmçinin burada Qurandan və hədislərdən bəhs edilən döyüş səhnələrini əks etdirirdi.Həmin qəhvəxanada təsvir edilən rəngkarlıq əsərlərdən biri "Əli oğlanları Həsən və Hüseynlə" əsəri XIX əsrdə rəssam Həsən İsmayılzadə tərəfindən işlənmişdir. Rəssam əsərin mərkəzində Həzrəti Məhəmmədi (sav) təsvir edərkən İslamın simvolu olaraq insanlara təqdim edir. Çox fiqurlu kompozisiyada Əli və oğlanları kafirlərlə döyüşür. Bəzi hissələrdə rəssam xırda səhnələri kompozisiyada yerləşdirib. Həmin səhnələr insanlara təbliğ etməsi, öyüd nəsihət səhnələri, döyüşə gedərkən vida səhnəsi, şəhid olmaları, Cənnətə çəkilmələri, iblislər və s. səhnələrindən ibarətdir. Əsas diqqət isə aşağı hissədə yerləşdirilən döyüş səhnəsinə verilib. Rəssam burada düşmən ordunun çox olmasına baxmayaraq lakin güc qüvvətin imam tərəfində olduğunu tamaşaçıya təqdim edir. Düşmən tərəfdən bəziləri ölmüş vəziyyətdə yerə sərilib, bir hissəsində isə savaşın qızğın anı təsvir olunub.İmamın başında müqəddəsliyin rəmzini bildirən simvol əks olunub ( 1,65).

XIX əsrdə Avropa üslubunun geniş mənimsənilməsi nəticəsində divar rəngkarlığına aid nümunələr dəyişərək Avropaya meyl edir. Burada tikilən sarayların divar rəngkarlıq nümunələri Avropanın barokko üslubuna bənzəyirdi. Belə ki, saraylar İsfahan və Fransa saray incəsənətinin mərkəzi olan Versal üslubunun eklektik formasını özündə əks etdirirdi. Lakin onlardan fərli olaraq Şərq zənginliyi və dekorativliyi özünü qoruyub saxlayırdı. Avropaya xas cəhətlərdən biri medalyonların içində portretlərin yerləşdirilməsi idi. XIX əsrin ortalarından başlayaraq Avropa üslubu o qədər mənimsənilir ki, yanlız məzmunca şərq elementlərini özündə əks etdirir. Bu dövrdə monumental rəngkarlığa aid nümunələr öz üstünlüyünü qoruyub saxlayır. Monumental boyakarlıq nümunələri iki istiqamətdə yaradılırdı: monumental divar rəngkarlığı boyalı və kaşılı panno kompozisiyalarından ibarət idi (1, 28).

Tehrandakı "Gülüstan" sarayının monumental rəngkarlıq nümunələri tempera boya əsasında sujetli və ornamental motivlərlə müxtəlif təsvirlərdən ibarət ənənəvi kompozisiyalar təşkil edir. XIX əsrin II yarısına aid divarüstü rəngkarlıq nümunələrinin əsasını tarixi portretlər təşkil edirdi. Otaqların karniz hissəsi, tavanlarda ornamental dekorlar, bəzən ənənəvi qızılgül və bülbül kompozisiyalarına rast gəlinir. Nəsrəddin şahın dövründə plastiklik realizm və

obrazların fərdi xüsusiyyətlərini özündə əks etdirir. Həmçinin divarüstü monumental rəngkarlıq nümunələrinin XIX əsrin sonlarına aid İsfahandakı sarayda görə bilərik. Həmin təsvirlərdə rəqqasələr, musiqiçilər, hərəmxana qadınlarının həmçinin aristokratların təsvirlərini görmək olurdu. Digər monumental divarüstü kaşı pannolarda kiçik rəngli döşəmələrdə fraqmentlər özündə həyat eşqini təmsil edirdi. Kaşı rəngkarlığına xas əsərlər özündə dekorativlik, şərtilik və stilizasiya prinsiplərini birləşdirirdi.

Monumental divar pannoları həmçinin ibadət yerlərinin, hamamların, şəhər qapılarını bəzəyirdi. Tehrandakı bəzəkli qapılardan biri Firdovsinin "Şahnamə"sinin sujeti əsasında Məhəmməd əl Şirazi tərəfindən bəzədilmiş "Darvaz-e Qədim Şimeran" adlı kaşılı pannodur. Pannonun mərkəzində Rüstəm Zal ağ divlə mübarizə aparakən təsvir olunub. Burada Rüstəmin kəskin hərəkətləri və çətin rakurslarda emosional döyüş anı əks olunur. Digər təsvir Musəvizadə İsfahanlı tərəfindən XIX əsrdə yaradılmış "Şahnamə" əsasında çəkilmiş "Simurq quşu" pannosu Şiraz şəhərindəki qədim hamamın qapılarını bəzəyir. Sujet Simurq quşunun gənc Rüstəmi öz yuvası Qaf dağına apardığı anı təsvir edir. Həmin hamamın digər pannosu "Rüstəm Zalın ağ divlə vuruşması" adlı pannonun adını çəkmək olar. Əsərin mərkəzində Rüstəm divlə döyüşdüyü an təsvir olunub. Rəssam burAda ənənəvi miniatür ənəənlərindən uzaqlaşaraq Qacarlar dövrü üslubunun miniatürünün sintezini yaratmışdır. (1, 101-105)

Beləliklə, XVIII əsrin sonunda yaranmış Qacarlar üslubu öz təməlini miniatür ənənələri və orta əsr Şərq ənənələrini əks etdirməklə yanaşı Avropa ilə yaranan əlaqələrin nəticəsində Avropa rəssamlıq məktəbinin xüsusiyyətlərini özündə daşımağa başlayır. Şərqə xas estetiklik, şərtilik, dekorativlik və Qərbə xas realizmin vəhdəti birləşir.Bütün bunlar özündə XIX əsrdə yeni üslubunu formalaşdırır. Monumental divar rəngkarlığı özündə saray həyatı zənginliyi aristokratiyanı əks etdirməklə Avropanın bir sıra şəhərlərindən bəhrələnərək təqdim olunur. Qacarlar üslubu incəsənətdə təkcə təsviri incəsənətdə deyil, dekorativ incəsənət sahələrində də yüksək inkişaf səviyyəsinə qədəm qoyaraq üslubun dekorativləşməsinə imkan yaratmışdır.

**Ədəbiyyat:**

1. https://az.wikipedia.org/wiki/Qacarlar
2. https://www.liveinternet.ru/users/truskovalent/post338633396/
3. Məhəmməd Rza Qəffari Nəmin Qacarlar dövrü rəssamlığında neoklassik təsirlər // "İncəsənət və mədəniyyət problemləri" jurnalı, N1 (31). Bakı: 2010.
4. Ибрагимов Тельман. Живопись Каджарского периода. Баку: 2013
5. Məhəmməd Rza Qəffari. Qacar dövrü rəssamlığıda realizm // "Mədəniyyət dünyası" elmi-nəzəri məcmuə. Bakı: 2010
6. Kərimov K., Əfəndiyev R., Rzayev N., Həbibov N. Azərbaycan incəsənəti. Bakı: İşıq, 1992

**Равана Аббасова**

## Художественные особенности монументальной живописи эпохи Каджаров

**Резюме**

Стиль Каджарцев является синтезом средневековых миниатюрных традиций Востока, а также особенностей европейской школы живописи. Монументальная настенная живопись эпохи Каджаров отражает богатство дворцовой жизни.

**Ключевые слова:** появление государства Каджар, создание искусства Каджар, монументальная живопись Каджарского периода, монументальная настенная роспись стиля Каджар, художественные особенности образцов.

**Ravana Abbasova**

## Art features of the monumental painting of the Qajar era

**Summary**

Qajar style is a synthesis of medieval miniature traditions of the East and also features of European painting school. The monumental wall paintings of the Qajar era reflects the richness of Palace life.

**Keywords:** the Emergence of the Qajar state, the Creation of art Qajar, monumental painting of the Qajar period, the Monumental wall painting of the Qajar style, artistic features of the samples.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 13.03. 2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 16.03.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 24.04.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Mehriban Novruzova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**